# Mənəvi dəyər əxlaq normaları və inanclardır

## ETNİK-DİNİ TOLERANTLIQ AZƏRBAYCAN CƏMİYYƏTİNİN BİRGƏYAŞAYIŞ NORMASINA ÇEVRİLİB

**MƏNƏVİ dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün hər hansı sosial qrup və ya cəmiyyətin əksər üzvlərinin doğru və lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüş, məqsəd, əxlaq normaları və inanclardır. Bu gün dövlətin hər cür resurslardan səmərəli istifadə yolları ilə formalaşdırmağa çalışdığı başlıca dəyərlər bunlardır: ədalətli olmaq, ailə birliyinə önəm vermək, vətənsevərliyi aşılamaq, qanunlara hörmət, dinə hörmət, eyni zamanda tolerantlıq, çalışqanlıq, qonaqsevərlik, yardımsevərlik.**



Bu səbəbdən də milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktualdır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Göründüyü kimi mənəvi dəyərlərdən biri də gənclərin tolerant tərbiyyəsidir.

Sirr deyil ki, müasir dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin birgəyaşayış normasına çevrilib. Hazırda Azərbaycan nəinki Cənubi Qafqazda, bütün Yaxın və Orta Şərqdə İslam mədəniyyətinin, tolerant mühitin formalaşdığı, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin effektiv vəhdətinin mövcud olduğu nümunəvi ölkələrdən biridir. Bunu YAP Siyasi Şurasının üzvü Vüqar Rəmzadə bildirib. Onun sözlərinə görə, Azərbaycanda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir".

Məhz ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb.

Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında gənclər, eləcə də cəmiyyət arasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir. Xüsusilə gənclər arasına bu sahədə maarifləndirmə işlərinin aparılmasına xüsusi önəm verilir. Əsas məqsədlərdən biri də budur. Vüqar Rəmzadənin sözlərinə görə, gənclər arasında mənəvi dəyərlərin qorunması, mənəvi, dini dəyərlərin araşdırılması, dini radikalizmdən, alkoqolizmdən, narkomaniyadan əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyası çox önəmlidir.

"Prezident cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur. Bu anlayış multikulturalizmin hakim olduğu bütün dövlətlər üçün xarakterikdir. Hansısa qanunu və ya idarəetmə formasını istənilən vaxt yenisi ilə əvəzləmək mümkündür. Ancaq xalqın mədəniyyətini yüz illər keçsə belə, dəyişmək mümkün deyil. Bu gün Azərbaycan özünün uzun əsrlərin süzgəcindən süzülüb gələn zəngin multikulturalizm modelini dünyaya təqdim etməkdədir. Azərbaycanın bu sahədəki təcrübəsi kifayət qədərdir və qədim tarixə malikdir". Bunu isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib. Onun sözlərinə görə, bəzən dini dəyərlərlə dünyəvi dəyərlər qarşılaşdırılır, dünyəvilik anlayışının dini dəyərlərlə ziddiyyət təşkil etməsi barədə əsassız fikirlər səsləndirilir. Bu səbəbdən ilk növbədə gənclər arasında geniş təbliğat işinin aparılmasına, mənəvi dəyərlərin önəmi onlara çatdırılmalıdır.

Gənclərin elmə, təhsilə yiyələnmələri daim diqqətdə saxlanmalı, dini bilgilər onlara düzgün çatdırılmalıdır. Onun sözlərinə görə, Azərbaycanda dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Sədr müavini, eyni zamanda, onu da vurğulayıb ki, ibadətlə yanaşı, birliyə və həmrəyliyə böyük önəm verən İslamın vəhdət və qardaşlıq dini kimi xarakterizə olunması təsadüfi deyil. Çünki dinimizin əsas məqsədi həm də cəmiyyət, dövlət və ailə üçün faydalı olan, həmrəylik naminə toplumun ayrılmaz hissəsinə çevrilən nümunəvi vətəndaş formalaşdırmaqdır. Xücusilə gənclər bu ruhda tərbiyyə olunmalıdır. G.İsmayılov deyib ki, İslam meydana çıxdığı gündən elmə böyük dəyər verib, elm öyrənməyi, təhsil almağı ibadət səviyyəsinə qədər yüksəldib.

Gündüz İsmayılov gənc nəslin, eləcə də uşaqların milli mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin rolunu vurğulayaraq, bu istiqamətdə ardıcıl işlərin həyata keçirilməsindən danışıb. Milli mənəvi dəyərlərə varislik və müasirlik prizmasından yanaşılmasının zəruriliyini qeyd edən G.İsmayılov deyib ki, bu, həm dövlətçilik, həm də mənəvi irsimiz baxımından əhəmiyyətlidir. "Hazırda gənclərimiz mədəniyyət, incəsənət, idman, elm, təhsil, texnologiya və başqa sahələrdə öz istedadlarını və qazandıqları uğurları layiqincə nümayiş etdirirlər. Əgər əvvəllər istedadlı Azərbaycan gənci öz potensialını üzə çıxarmaq üçün şəraitin olmamasından haqlı olaraq gileylənirdisə, indi vəziyyət tam başqadır. Hər bir perspektivli Azərbaycan gəncinin yetişməsi üçün ölkəmizdə dövlət tərəfindən lazımi şərait yaradılıb. Burada elə təkcə son illər Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa qərarları ilə yaradılan çoxsaylı Gənclər mərkəzlərinin və evlərinin açılışını da qeyd etmək olar",- o deyib.

Onun sözlərinə görə, gənclər arasında dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği, gənclərin dini radikal təsirlərdən qorunması istiqamətində də bir çox tədbirlər keçirilir. Həmçinin ölkəmizdə fəaliyyət göstərən dini icmaların Dövlət Komitəsi tərəfindən keçirilən müxtəlif tədbirlərdə, layihələrdə iştirakı gənclərin cəmiyyətə inteqrasiyasında ciddi irəliləyişlər yaradıb

YAP Siyasi Şurasının üzvü Vüqar Rəmzadə isə bildirib ki, bütün bunların fonunda, heç şübhəsiz, ölkəmizdə milli mənəvi dəyərlərin qorunması və geniş təbliğ edilməsində mətbuatın da xüsusi rolu vardır. Azərbaycan xalqının milli mənlik şüurunun oyanışında, zəngin tarixi-mədəni irs, adət-ənənələr üzərində yeni tipli mədəniyyətin yaradılmasında, türklük düşüncəsi, islam dəyərləri, müasir demokratik prinsiplər əsasında Azərbaycançılıq məfkurəsinin yaradılmasında anadilli jurnalistikamız ilk günlərdən həm təşkilati, həm təbliğati, həm də təşviqati işin mərkəzində olmuşdur. İllər keçdikcə KİV milli mənəvi dəyərləri yeniləşdirib zənginləşdirməkdən əlavə, həm də onu yad təsirlərdən qoruyan ideya-mənəvi sipər rolunu oynamışdır

Bu gün mətbuatda və sosial mediada milli adət-ənənələrimizi, milli ideologiyamızı, tariximizi, ana dilimizi, ölkəmizdə mövcud olan ənənəvi dinimizi qorumağın, o cümlədən sosial şəbəkələr vasitəsilə gənc nəslə təbliğ etməyin yolları müzakirə edilir, milli adət-ənənələrimizlə mədəni inkişafımızın vəhdəti araşdırılır və geniş ictimaiyyətə çatdırılır. Mətbuatda aparılan işlərin əsas hədəfi isə gənc nəslin milli mənəvi dəyərlərə sahib çıxmasını, onu qorumasını və vətənpərvərlik hisslərini gücləndirməsini təmin etməkdir.

***Könül***